**Щцсейнбала Мирялямов**

# YENİ HƏYAT

Marat həmişəki vaxtda oyanıb, arvadının açdığı süfrədə səhər yeməyinə girişdi. Süfrədə qaymaqdan, baldan, iki-üç cür mürəbbə və ikradan tutmuş hər şey vardı. O, iştahla yeyir, gözaltı ora-bura fırlanıb işə getməyə hazırlaşan arvadına baxırdı. Arvadı Gültəkin o otaqdan-bu otağa keçib geyinib-bəzənirdi. Gözəlliyinə söz yoxuydu. Təbiət elə bil onu əllə yonmuşdu. Mərmər kimi hamar və mütənasib bədəninə, ayaqlarına, qollarına və nəhayət, üzünə baxdıqca baxmaq istəyirdin.

Əvvəlcə uzun, bahalı ev xalatında olan Gültəkin nə qədər cazibədar görünürdüsə, indi paltarını dəyişəndə tamam başqa şəklə düşdü. Marat iri, qaymaqlı tikəni zorla udub fikirləşdi ki, işə bax ha, keçmişdə, hətta sovet dövründə qadınlar işə örtülü, abırlı geyimdə gedər, evdə isə əksinə, açıq-saçıq geyinərdilər. İndi isə tərsinədir, evdə abırlı geyinir, işə isə demək olar ki, lüt-çılpaq gedirlər. Allah bu dəbi qoyanın atasına lənət eləsin.

– Ə, Bobik, bala, bir az səsini azalt.

Qonşu otaqda on yaşlı oğlu maqnitofonun səsini o qədər qaldırmışdı ki, Maratın fikirləşməyinə mane olurdu. Hə, Marat ağzını marçıldada-marçıldada səhər tualeti ilə məşğul olan arvadına baxıb fikirləşirdi: Zalımın qızı düz bir saat öz üzəridə işləyir. Halbuki, buna heç bir lüzum yoxdur. Gərək bu movzuda bir məqalə yazam. Əşi, belə də dərd olar. Ona bax, dodaqlarını qızardır. O qədər sürtür ki, gül kimi dodaqları gör nə günə düşür.

Birdən onun beynindən belə bir fikir keçdi ki, hələ gündə o dodaqları nə qədər öpürlər.O, bu fikirdən dəhşətə gəlib tikəsini əlindən

saldı. Bu fikir hardan beyninə düşmüşdü. Lənət şeytana, axı doğrudan da belə ola bilər. Tüpürüm o çörəyə ki, biz yeyirik. Yadına düşdü, anası danışardı ki, bəs gəlinlik vaxtı bir dəfə qohumlarıgilə qonaqlığa getməyə hazırlaşanda evdə yanaqlarına ənlik vuranda Əbülfəz görübmüş. Ağzına bir şillə vurub pudra-kraskalarını da küçəyə vızıldatmışdı. O vaxtdan yazıq arvad pudra-kraska nə olduğunu bilməmişdi. Indi onun oğlunun arvadına bax. Kişi bunu görsəydi, Allah bilir nə qırğın olardı.

Gültəkin geyinib qurtardı. Qolları, hətta beli açıq köynəkdə, yubkasının "razrez"i adam çağırırdı… Bəh-bəh, pah atonnan, "razrez"ə bax a, az qala göbəyinə çatır.

Xülasə, Marat yeməyini necə yediyini heç bilmədi. Tikə neçə dəfə boğazında qaldı. Çayın gücü ilə içəri ötürdü. Nə desin, neyləsin? Durub atası kimi şılləsin. Bir dənə odur məgər? Şilləmək ha, heç əlini qaldıra bilər? Gedib bütün qohumlarını gətirər. O qədər döyərlər ki, Marat bir həftə yerindən dura bilməz. Bilmirdi ki, acığını kimin üstünə töksün.Uşaqlar hələ balacaydılar. Qulluqçu Valya da onlarla məşğul idi. Bu zaman qapıda dayanmış "Mercedes"in siqnal səsi eşidildi. Valeri idi, çağırırdı. Gültəkin evdə də, çöldə də rusca danışırdı. Onun bu şakərindən də Maratın zəhləsi gedirdi.

Ta bu nə kişilikdi ey. Maratın hirsindən rəngi qızarmışdı. Getməyə hazırlaşan Gültəkin bunu hiss edib təəccüblə onu süzdü. Ancaq tələsdiyindən səbəbini soruşa bilmədi. Ay Allah, "razrez"ə bax. Hər şeydən çox bu "razrez" Maratı dəli edirdi. O boyda da "razrez" olar? Axı bu neyçündür, kimin üçündür?

Arvadı qapını açıb çıxanda ərinə baxıb axır özünü saxlaya bilmədi: - tı zaçem pokrasnel?

Marat özünü zorla ələ alıb: - idi, idi, -dedi. Və gözlərini elə bərəltdi ki, Gültəkin təəccübdən quruyub qaldı. Ancaq işə gecikdiyinə görə dayana bilmədi. Pillələri nazik kablukları ilə bərkdən taqqıldada-taqqıldada həyətə düşüb "Mercedes"ə oturdu. Bəli, getdi. Ad mənim, yar özgələrin. Necə olub birinci dəfə noxtanı əldən vermişəm. Yox, bəlkə də

hələ gec deyil. İki ildir əhvalat başlayıb. Gültəkin bu işə düzələndən. Elə o vaxtan evlərinin dolanışığı dəyişib. Marat özü də ətə-qana dolub. Hələ qarın da buraxıb, şişmanlayıb. İki ilə. İki il – yeddi yüz otuz iki gündür. Kül mənim başıma!

Marat ikiəlli başına vurub qapıdan çıxdı. Avtobus dayanacağına çatanda bir xeyli adamın yığışdığını gördü. Çoxu da arvadlar, qızlar idi. Hamısı da şalvar geyinmişdi, ya da razrezli yubka. Hətta birinin əynində ancaq lifçik vardı. – Onlara imkan verilsə, vallah, keçi kimi tamam lüt-üryan olarlar, - deyə Marat fikirləşdi. Zalım qızlarının heç elə bil ata-anaları, qardaşları-zadı yoxdur. Bu boyda moda olar?

“Qazel” gəldi, hamı özünü içəri soxdu. Marat cəld keçib qabaqda oturdu. Yer çatmadığına görə bir-iki arvad və qız ayaqüstə dayanmalı oldu. Maşının içi alçaq olduğuna görə əyilməyə, bir növ dombalmağa məcbur olmuşdular. – Heyvanıva şükür, - Marat fikirləşdi. Güya iki dəqiqə gözləsə, dünya dağılar. Bilmirəm bu cinsin niyə ləyaqət adına bir şeyi zərrəcə qalmayıb. Nə desən eləməyə hazırdılar. Hansı pozanı desən, o dəqiqə. İndi bizimki görəsən neyləyir, bir dəstə pijonun arasında.

Dünya Maratın başına fırlanırdı. O cür gözəl, yarıçılpaq sırtıq pijonların arasından salamat çıxa bilərmi? Ora bax, arvad əyilib, kişi də: Tfu. İşə çatınca Marat özünü o ki var lənətlədi.

Xadimə Nisə xanımla salamlaşıb stolun arxasında oturdu. Stolu silib qəzetləri vərəqləməyə başladı. Bəzən bir nömrədə neçə-neçə maraqlı yazı olur. Bəzən 32 səhifəlik qəzet bizim qəzetlərdən də boş olur. Adlarını azad və müstəqil qoyub, hələ KQB-nin psixoloji təsirindən qurtara bilmirlər. Qəribədir, SSRİ dağılanda ilk illər daha çox cəsarətli idilər. İndi getdikcə elə bil cəsarətləri sönür. Yavaş-yavaş Putini I Pyotra döndərirlər.

Birinci gələn redaktor müavini Asif Qaplanovdur. Hitlersayağı bığları və məzmunsuz sifətinə əhəmiyyət verməyib özünü ağır və ciddi aparmaqla daxili boşluğunu malalamaq istəyir. Aha, bu gələn kimdir? Deyəsən, Cəbrayıl Əflakdır. Allah bilir, boş başında nə qədər müqayisə

və intriqa gəzdirir. Bu da, Cəmşid Turxandır. Bildi-bilmədi, o dəqiqə mülahizə yürüdəcək. Özü də  kim ağıllı danışsa, onun əleyhinə.

Beləliklə, yarım saata “İstiqbal” qəzetinin kollektivi yığışdı. Sonra baş redaktor balacaboy Kərim Cavidan hamını iclasa çağırdı. Nitqi o qədər qüsurlu idi ki, heç nə başa düşmək olmurdu. Başqaları da ya başa düşürdülər, ya da bir söz deyə bilməyib dözürdülər. Yenə həmişəki kimi, qəzetin ümumi səviyyəsini bir kənara qoyub məşhur mübahisəçi Cəbrayıl Əflak başını yellədə-yellədə Azərbaycandakı bütün bəlaların başında beynəlxalq sionizmin durduğunu iddia edir, siyasi liderin fikrini öyrənməyin vacibliyindən danışır. Girdəsifət,  ağbəniz Kamal Səməndər qızara-qızara - əşi, beynəlxalq sionizmin bura nə dəxli, -dedi. Cəbrayıl Əflak dərhal ona çığırdı. – Əşi, sən gör Bakının ən mərkəzi hissəsində, ən təmtəraqlı evlərdə kimlər yaşayır? Əlbəttə, yevreylər.

– Bacarırlar, yaşayırlar da. Elə Nyu-Yorkun da, Londonun da ən gözəl binalarında yaşayanlar onlardır.

Xülasə, mübahisə uzandı. Kərim Cavidan əlindəki ruçkanı mizə çırparaq güclə sakitlik yaratdı. Sonra növbə ilə hərə öz mövzusunu dedi. Marata növbə çatanda Cavidan gülümsəyib dedi:

– Marat müəllim, nakam ölmüş və ya unudulmuş adamlar haqqında silsilə yazılar əla olar. Gələn nömrədən başlaya bilərsinizmi?

Marat qaşlarını çatıb fikrə getdi və beynində nakam ölmüş adamları və adları unudulmuş  böyük səxsiyyətləri sıraladı.

– Olar, - dedi. Kak raz belələrindən birinin ad günüdür.

– Əla, əla. Saldım plana.

Sonra hərə öz mövzusunu dedi və qalanları da mövzu alıb iş dalınca yollandılar. Marat Moskva jurnallarının krossvordlarına cavab axtara-axtara Bəhruzə xanımın gətirdiyi çayı içdi və qarşı stuldakı uzunboğaz Aygünün öz üzərində işləməyə başladığını görüb səssizcə çölə çıxdı.

Sakit noyabr günü idi. Çöldə yolun ortasında uşaqlar futbol oynayırdılar. İki balaca ləzgi qızı da özləri üçün oynayırdılar. Qızların balaca, təmiz, məsum çöhrələrinə baxmaq Marata ləzzət verirdi. Beş-altı ildən sonra bu gözəl üzlərdə əməliyyatlar başlanacaq. Allahın verdiyi gözəl nemət tamamilə korlanıb gözəlliyini itirəcək. Bu fikirlərlə Marat otağına qayıtdı və krossvordlara girişdi. Bir də ayılıb gördü ki, nahar vaxtı yaxınlaşıb. Bayaqdan boşalan redaksiya yenidən səs-küylə dolurdu. Nahar yeməyinə qızğın hazırlıq görülürdü. Əməkdaşlar ciblərindəki qəpik-quruşları bir yerə toplayıb kolbasa-çörək problemi ilə məşğul ikən Marat yaxınlıqdakı yeməkxanaya yollandı.

Ofisiant xanımın donu dizlərindən xeyli yuxarıda olduğundan razrezə ehtiyacı yox idi. Hə, Gültəkin yəqin ki, indi Marat kimi nahar fasiləsində idi. Yəqin ki, pijonların ortasında deyib gülə-gülə... Marat beynində səslənən "mazaqlaşırlar" ifadəsini bir az da yumşaltmaq üçün daha münasib söz axtarırdı. Ətirli lüləkabab hər şeyi unutdurdu.

Əgər Maratın bir eybi vardısa, o da yemək ehtirası, yeməkdən aldığı ləzzət idi. Canına nuş olsun deyə o, pis şeylər barəsində düşünməməyi qərara aldı. Ancaq bununla içində səhərdən bəri yığışıb köpürən hirsini məhv edə bilmədi. Bu hirsin təsirindən idi ki, həmişə deyib-gülən, zarafatlaşan Maratın bu gün hələ indiyə kimi üzü bir dəfə də olsun gülməmişdi. Yox, belə olmaz. Bu kişilik deyil. Evdə hər şey var, ehtiyat da var. Mən də bir az səylərimi artıraram. Gültəkinin gətirdikləri olmadan da keçinə bilərik. Bu axşam evdə qırğın-qiyamət qoparmalıyam ki, işdən əl çəksin. Özü də neçə dəfə sözarası deyib ki, sən ailəni saxla, mən çıxım. Saxlayaram. Adam var ayda yüz "şirvan" qazana bilir, mənə nə olub ki?

O, gəldiyi qərardan sevinərək hesabı verib otağa qayıtdı. Qələmi əlinə alıb nəsə cızmağa başladı. Bu zaman Bəhruzə xanımın zil səsi eşidildi:

– Marat müəllim, çay hazırdır.

Qalxıb fincanını götürüb getdi. Qayıdanda yenə Pərizadın onun yerində oturub öz üzərində işlədiyini gördü, - Allahu-Əkbər! – qeyri-ixtiyari əlində dolu olan fincan dəhlizdə gəzintiyə başladı. Zalımın qızı, onsuz da hər yerin açıqdır, mal göz qabağındadır. Bəzənməyə nə ehtiyac. Başqalarını qınayıram, özümünkündən xəbərim yoxdur. Lap lüt-üryan olsunlar, qınamağa haqqım varmı? O gün Həmid Gülcamala yaxşı deyirdi ki, sən bu geyimlə mənə təcavüz edirsən. Yazıq düz deyir də. Cavan adamdır. Gülya ya geyimini dəyişməlidir, ya da işdən əl çəkməlidir.

Ancaq Marat ürəyinin dərinliklərində hiss edirdi ki, arvadı çətin ki, onların hansı birindənsə imtina edə. Axır ki, azad olmuş stolun arxasında oturdu. Tumbuçkanı açanda gördü ki, heç nə yoxdur. Yaxşı ki, ehtiyatı var idi. Cibindən bir konfet çıxarıb çayı içdi. Alçaqboy, enlisifət Pərizad əlində çay stəkanı içəri girdi.

– Marat müəllim, konfet varmı?

– Al, cibimdə biri qalıb.

– Sağ olun, Marat müəllim, Allah sizi qəzetimizdən əskik eləməsin.

Saat beşdən sonra səhərdən bəri suyu kəsilmiş dəyirmana oxşayan redaksiya arı yuvasına döndü. Operator otağında eyni vaxtda 7 nəfər diqtə edirdi. Saatın əqrəbləri 6 rəqəminin üstündə dayananda Marat klyokunu götürüb xüdahafizləşmədən çölə çıxdı. Qalanların hamısı gec gəlib, gec də gedirdilər.

İki maşın dəyişib evə çatdı. Qapını Toppuş açdı. Marat qızın girdə, totuq sifətinə hirslə baxsa da, axırda istər-istəməz gülümsədi. Yuyunub otağına keçdi. Qədim İran üslubunda gözəl italyan divar kağızları ilə bəzədilmiş otaqda - öz kreslosunda oturub fikrə getdi. Otaqlar başdan-başa Suriya, Misir, Təbriz və Şərq üslubunda Belçika və Çexiya xalçaları ilə döşənmişdi. Maratın divanının üstündəki divarda isə misilsiz bir Şirvan xalçası asılmışdı. O, hər gecə bu xalçanı sığallaya-

sığallaya yuxuya gedərdi. Stolun üstündə xrustal qabda qara kişmiş, badam, qoz ağzına kimi dolu idi.

Balaca Toppuş podnosda italyan servizinin fincanında atası üçün çay gətirdi. Marat ah çəkib gülümsədi və balacanın yanağından öpdü. İlk dəfə hiss etdi ki, səhərdən bəri qəlbində yığılan acı qəzəb yavaş-yavaş əriyib gedir. Bütün bu otaqlardakı cah-cəlal özünün qayğısız və məğrur davranışı, iş yerində ilboyu göstərdiyi xeyirxah əməllər, maaşından asılı olmayan müstəqilliyi, cibindəki pulu – hamısı Gültəkinin gözəlliyinə, çılpaq qollarına, yubkasının razrezinə görədir. Qəribə olsa da, Marat birdən gülməyə başladı... Səhərdən gör nə axmaq fikirlərlə məşğul olub özümü üzürəm. Məndən onqat artıq kişilərin arvadları, qızları belə gəzmirmi? Məgər moda əsiri olmaq pozğunluq deməkdir? Məgər indiyə kimi iş yerində onlarla qız və gəlində bir pozğunluq görübmü?

Doğrudur, onlara ilişənu də görməyib. İşdəki cavanların buna imkanları yoxdur və olmayıb. Yox, Gülya belə iş tutmaz, çünki belə iş tutub gələn qadın o saat bilinir. Əgər mən öz kişilik borcumu yerinə yetirə bilməsəm, bu, başqa məsələ. Adətən, çöldə belə iş görüb gələn qadın ərini yaxına qoymaz. Gülyadansa belə iş görməyib. Əgər mən istəyən kimi geyinib getsə, işdə başqalarının yanında gülünc görünməzmi? Bəlkə də yox. Ancaq neyləyəsən ki, bu tayfa bu cür başıboş yaranıb.

Beləcə, Gültəkin zəngi basıb sürücü ilə qucağı dolu içəri daxil olanda Maratın ürəyində artıq səhərki düşüncələrdən əsər-əlamət qalmamışdı. Amma doğrudan da görəsən, Gültəkin bir dəstə pijonun içində öz namusunu qoruya bilirmi?

2000